# YAZIÇI ÖNCƏGÖRMƏSİ,

## yaxud 31 il gecikmiş məktub

Hörmətli Şəfəq Nasir! Çox təəssüf edirəm ki, zamanında, vaxtında yazılmalı olan, dövrünə görə ədəbi meydanda olanların əvəzindən bu məktubu sizə az qala bir qərinəyə qədər ötmüş zamandan sonra yazıram. Əvvəlcə bir-iki kəlmə nə üçün gecikməyimin səbəbini anlatmaq istərdim. Kitablarınızın - əlbəttə, mətbuatda dərc olunan yazılarınızın demək istəməzdim - dünyaya gəlişi zamanı XX əsrin siyasi zəlzələlər dövrünə təsadüf eləyir. Elə ilk kitabınızın da *«Müəllifin ilk kitabı»* qrifi ilə nəşri də 1988-ci ildir. Bu da həmin dövrün az-çox gözü açıq adamlarına bəllidir ki, siyasi mühit bir növ bizi zamana təhlili münasibətdən təcrid eləmişdi. Bir az da açıq desəm, nəinki ədəbi sözü, heç ədəbi sözü yaradanları da görə bilmirdik.

Sənin ilk kitabının nəşrinə zaman necə münasibət göstərib? Müasirlərin *«Müəllifin ilk kitabı»* seriyasından buraxılan *«Gecə yağışı»*na baxa biliblərmi?.. sualını açığı bu gün cavablandırmaq mənim üçün çətindir. Görün nə qədər vaxt keçib. Yaradıcı insan öz zamanı ilə birgə böyüyür. Zaman ona nə qədər qol-qanad verə bilirsə, o da zamanın fəzasında bir o qədər uça bilir, pərvazlana bilir.

Əlimdə olan kitablarını diqqətimdən keçirirəm: *«Gecə yağışı»* (Yazıçı, 1988) hekayələr, *«Beyləqanın güllü yazı»* (Gənclik, 1991) hekayələr, esselər, *«Ciddi söhbət»* (Günəş, 1999) publisistik məqalələr toplusu, *«Bir ömrün üç bucağı»* (2004) povestlər, *«Könüllərə şəfəq payı»* (2014) məqalələr toplusu... bilmirəm, bu kitablardan da başqa sırada olan varmı, ya yox... söhbət bunda deyil, adları çəkilən kitabların hər biri bəs eləyir ki, sənin ciddi ədəbiyyat adamı, bədii söz ustası kimi təbiətini xarakterizə edəsən. Sənin yazıçılıq gücün *«Gecə yağışı»*nda nə qədər görünürsə, *«Beyləqanın güllü yazı»*nda bir o qədər davam edir. *«Bir ömrün üç bucağı»*nda daha geniş qol-budaq açır. Və sanki sən bütün dünyanı bir üçbucaq içərisinə yığa bilirsən və ona çox yuxarıdan baxmaq imkanını ədəbi istedadınla göstərmək gücündə olduğunu təsdiqləyirsən.

*"Bir ömrün üçbucağı"* povestlər kitabının əvvəlində çox təsirli bir həyat hekayəti var. Təkcə elə bu hekayət bəs eləyir ki, yazıçılığın, bədii düşüncənin sənin varlığına necə hakim olduğunu aydın başa düşəsən: *"Sübhün alatoranında baxçamıza düşürdüm. Ani bir titrəyişlə butasından açılan ləçəklərin ətrindən göyün üzünə səpilmiş ulduzların sayrışmasından zövq alırdım. Bir də gördüm, məhləmizin uşaqları ətrafımda qaynaşır, mənə də ulduz seç, deyib yaxamdan sallaşırdılar. Hərəyə bir ulduz seçib könüllərini alırdım. Onlara özümdən toxuduğum ulduzların nağılını danışırdım, yox, toxumurdum, ürəyimdə doğulan istəklərimi, xəyalımda çəkdiyim rənglərin yaratdığı mənzərəni danışırdım"*... Bir cümləni də diqqətə çəkmədən ötə bilmirəm. *"Yox, istəyirəm biləsiniz ki, məni əhatə edən aləmin bir canlısına - adamına, ağacına, otuna, yarpağına, quşuna, itinə-pişiyinə də ötəri bir nəzərlə baxmamışam"*. Bütün bunlar sənin yazıçı nəzərlərinin özündən yeddi dağ o yanacan, yerin yeddi qatınacan, göyün neçənci mərtəbəsinəcən yetməyindən xəbər verir. *"Bir ömrün üçbucağı" povestinin çinarla başlanğıcı əzəmi yolun əzəlinin uğurundan xəbər verirsə, sonluğundakı taleyimə o yolu getmək yazılmışdı"* cümləsindəki hökm də ədəbi qismətindən məmnunluğunu bildirir. *"Ruhlar ocağa dönər"*, *"Ötən günlərin nağılı"* povestləri də klassik nəsr təfəkkürü ilə qələmə alındığından *"Həyatın bir parçası"*nı göstərmək gücündədir. İnsanların bu dünyadan əbədi dünyaya *"gözü quru, ürəyi toxtaq"* getməsi ideyası düşündürücüdür. Əslində, bu, elə ədəbiyyatın xidmətidir. İnsanları bu yola hazırlamaq missiyasıdır.

Açığı, *«Gecə yağışı»* mənə dəqiq və aydın olan bir həqiqəti dedi ki, sən ədəbiyyata yazıçı



kimi gəlmisən. Bədii sözün işığında doğulmusan. Ancaq zamanın kataklizmləri sənin mənəvi mühitinə təsirsiz ötməyib. Və istər-istəməz çevik janrla - xüsusilə, publisistika ilə cəmiyyətlə üzbəüz danışmaq istəmisən. Bu da sənin bir ədəbiyyatşünas, tənqidçi kimi mövqeyini açıq-aydın göstərir. *«Ciddi söhbət»*də, *«Könüllərə şəfəq payı»*nda ədəbi mühitdən kənarda olmadığını, əksinə, bu mühiti yaradanlardan biri olduğunu təsdiq eləyən ədəbi faktlardır. Sənin bütün yaradıcılığın boyu ədəbi fakt və hadisələrə elmi baxışının əsasında hazırlıqlı ədəbiyyatşünas mövqeyi dayanır. Şübhəsiz, bu da sənin tədqiqatçılığınla bağlıdır.

Sözü öyrənmək, onun doğuluş ovqatına köklənmək... və bu yöndən sözə münasibət göstərmək, sözün dilini bilmək, onun dadını, tamını hiss etmək... bütün bunlar nə qədər yazıçılıq gücü istəyirsə, bir o qədər də sözə elmi yanaşma münasibəti istəyir. İndi sən yaradıcılığın elə bir dövründəsən ki, publisistikanla bədii yaradıcılığın sanki bir-birinə qovuşub, bir-birinə bağlı, ayrılmaz bir görkəmdə təzahür eləyir. Bu da sənin yazılarına xüsusi bir cazibə gətrir. Oxucu, hətta elmi məqalələrini də emosional bir ruh çağırışı kimi qəbul eləyir.

Unutmamışam, ilk dəfə sənin imzanı 80-ci illərin qarışıq zamanında görmüşdüm. Ara-sıra kitabların da gözümə dəyirdi. Və təəssüf edirəm ki, uzun zaman ərzində bu imzanın işığına tərəf getmək imkanım olmayıb.

Hörmətli, Şəfəq Nasir, sənin adının ədəbi təxəllüsü kimi görünən *«Nasir»* imzası baban Məmmədəli Nasirin adı ilə bağlıdır. Bu, o Nasirdir ki, XX əsrin əvvəllərində oyanan ədəbi mühitin həm poetik, həm də publisistik satirasında ayrıca yeri var. Çox sevinirəm ki, ədəbiyyat tariximiz üçün dəyərli bir monoqrafiyanın *«Məmmədəli Nasir»* elmi-tədqiqat əsərinin müəllifisən. Bu monoqrafiya ilə həm öz soyadına işıq tutmusan, həm də Məmmədəli Nasir adında satirik poeziya və publisistika tariximizin dəyərli bir siması tədqiq etmisən, öyrənmisən. Onun bütöv elmi portretini yaratmısan. Məmmədəli Nasirin kimliyini onun mübarizliyini, həqiqət uğrunda mübarizələrini araya-ərsəyə gətirmisən.

1914-cü ilin *«Lək-lək»* jurnalında redaktor Cabbar Əsgərzadənin *«Leyləyin yuvadibisi»* gizli imzası ilə Nasirin adı belə əbədiləşib:

Görmürsən, a quzum, Nasiri xəncərlədilər
Mərvdə Yusifi öldürmədi bir çəkmə silən?

Ümumiyyətlə İrəvan ədəbi mühitinin keçən əsrin əvvəllərindəki yönümlərinin tədqiqində, elmi cəhətdən araşdırılmasında xidmətlərin az deyil. Ardıcıl olaraq *"Molla Nəsrəddin"* jurnalı ilə bağlı yazdığın məqalələr səni, həm də bir *"Molla Nəsrəddin"*çi kimi tanıtmışdır.

Qısa bir məktubda ömrünün 65-ni yola salmaqda olan ictimai xadimin, yazıçının, ədəbiyyatşünasın, tədqiqatçının və bu gün də qibtə ediləcək bir enerji ilə yazıb-yaratmaqda olan publisistin ədəbi taleyinə nə qədər nüfuz etmək olar... Bu, bir ritorik sualdır. Yəni cavabı konkret ifadə etmək mümkün deyil. Bunun üçün gərək sənin son illərdəki hələ kitaba çevrilməmiş və yaxud da kitablara yığılmamış yazıların da tədqiqata cəlb olunsun, öyrənilsin. Zamanın gətirdiyi suallara vaxtında verilmiş cavabların ipə-sapa düzülsün. Bu isə əlbəttə, geniş və əhatəli tədqiqatın işidir.

Doğrusu, mən *"Gecə yağışı"* hekayələr toplusunda mənə qeyri-adi dərəcədə öncəgörmə təsiri bağışlayan hekayələrin haqqında danışmaq istəyirdim. Bu kitabda verilmiş *"Gecə yağışı"* hekayəsinin adı həm də kitabın ünvanıdır. Mən deyə bilmərəm, o vaxt, yəni 31 il bundan əvvəl həmin hekayənin adının kitaba ünvan seçilməsi kimin xidmətidir? Müəllifinmi, redaktorunmu, naşirinmi, ədəbi məsləhətçininmi... Amma hər halda uğurlu seçimdir. Ədəbi təəssüratda mən əsərin məzmununu təkrar etməyin tərəfdarı deyiləm. Ədəbi mövqeyimi də əsərin məzmunu ilə yox, mahiyyəti ilə göstərməyə çalışıram. Bu hekayədə Bakıda yaşayan cavan bir ailə Qarabağın Şuşaya yaxın bir tərəfinə - doğma kəndinə istirahətə gedir. Ata az-çox imkanlıdır. Baxmayaraq ki, hələ şəhərdə ailəsini rahat mənzillə təmin edə bilməyib. Amma gələcəkdə hər şeyi yoluna qoyacağına inamlıdır. İndi ailəsini də götürüb Qarabağa - növbəti yayı dincəlməyə gedir. Burada qayğılar... kənd qayğıları, ailə qayğıları və bir az da ailə başçısının başı soyuqluğu... imkan vermir ki, ailə çoxdan bəri həsrətində olduğu Şuşaya getsin. Hekayənin mərkəzində müəllif bir *"Uçağan"* obrazını diqqətə çəkir. Həqiqətən hər birimizin uşaq düşüncəsində bir *"Uçağan"* obrazı var. Onu əlimizin üstünə qoyub deyərdik: *"Uçağan uç, uç nənəmi mənə gətir"*. Hekayədə isə ana uşaqlarına uçağanın möcüzəli gücündən danışır və uşaqlar anadan soruşurlar: *"Uçağan Şuşanı bizə gətirə bilərmi?"* Və beləcə Şuşanı gətirmək, Şuşaya qovuşmaq istəyi uzaq mifik düşüncədəngəlmə uçağanla bağlanır. Sanki bu günün hekayətidir. Gecə yağışı yağır. Hər şeyi yuyub aparır. Sanki təbiət təzələnir və bu təzələnmiş təbiətdə Şuşanın uçağanla qayıtması mümkün olmasa da Şuşaya getməyin mümkünlüyü açıq-aydın səmadan duyulur. Düşünürəm ki, insan nəslinin qeyri-adi tipinə ayrılan yazıçıların qeyri-adi öncəgörmələri zamanla təsdiqlənir. Bu hekayəni müəllif ötən əsrin 88-ci ilə qədər artıq yazmışdı. Və onda hələ Şuşa problemini görə bilmirdik. Bu günün zirvəsindən yəni 31 ildən sonra müəllifin öncə görməsinin necə dəqiqliklə tarixi şahidinə çevrilirik. Bu kitabda toplanmış digər hekayələrdə də öncəgörmə elementləri az deyil. Xüsusilə, *"Borc"* hekayəsi... Bu hekayə mənə Mirzə Cəlilin *"Anamın kitabı"*nı xatırlatdı. Şəfəq Nasir Mirzə Cəlil yolu ilə getməyib. Amma Vətəni, yurdu ananın özü kimi təqdim edə bilib. Şəhərdə oğulları - adlı-sanlı tanınan, imkanlı övladları hərəsi öz işi-gücü ilə məşğuldur.

**(Davamı 16-cı səhifədə)**

(Əvvəli 9-cu səhifədə)

Ana isə şəhərdən çox uzaqda - Qarabağın bir küncündə xəstədir. Oğlanlarını arzulayır, nəvələrini görmək istəyir, gəlinlərinin nəvazişinə möhtacdır. Ancaq hər an - qapını külək döyəndə belə gözlədiyi oğullarından xəbər-ətər yoxdur. Ana burada adlı-sanlı oğulları olan Azərbaycan timsalındadır. Xəstədir, can verir. Onun bu gün-sabah ölə biləcəyini heç övladları eyinlərinə də gətirmir. Bu da müəllifin öncəgörməsinə daha bir dəlil.

Bu motiv "Təklik" hekayəsində də davam edir. Ata da, ana da yaşın gətirdiyi qovğanın qabağında külək kimi əsirlər. Hətta bir-birinin dilini də başa düşmürlər. Halbuki, az qala yarım əsr bir yastığa baş qoyublar. Təklik onları dəli-divanə eləyib. Müəllif düşüncəsindəki yekun bunu deyir ki, əgər onlar ayrı düşdükləri oğulları, nəvələri ilə qovuşsalar, hər cür çətinlik aradan qalxar.

Dünya ədəbiyyatında elə sənətkarlar var ki, onların yaradıcılıq yolunu tədqiq etməklə bir çox hallarda zamanı qabaqlamaq güclərini görmək mümkün olur. Belə motivlər Frans Kafkada, Q.Q.Markesdə, Ç.Aytmatovda, M.Bulqakovda, Y.Səmədoğluda... və əlbəttə, daha çox sənətkarların yaradıcılıq motivlərində belə nüanslara rast gəlmək mümkündür.




Bu, nə şamanlıq deyil, nə Nostradamusluq deyil, nə də falçılıq deyil. Sadəcə, həyatı dərindən bilən, zamanın gərdişini öz qanunauyğunluqları çərçivəsində görə bilən zəka sahibinin qənaətləri ilə bağlı olan keyfiyyətdir. Bir sözlə, "yazıçı öncəgörməsi" deyəndə biz nəzərləri gələcəyə tuşlanmış olan müdrikin özünəqədərki həyatın qanunauyğunluqları çərçivəsində

# YAZIÇI ÖNCƏGÖRMƏSİ,

## *yaxud 31 il gecikmiş məktub*

gələcəyə baxışı ilə gəldiyi nəticəni görə bilirik. Əlbəttə, elə sənətkarlar var ki, onlar yazarkən, yaradıcılıq aləmində olarkən heç gələcək haqqında düşünmürlər, bəlkə, heç keçmişi də yada salmırlar. Amma şüuraltı olaraq onlar keçmişdən aldıqları bilgilərin və müşahidələrin təsiri altında olurlar. Və eyni zamanda, əlbəttə, bəlkə heç gələcək haqqında da düşünmürlər. Ancaq qanunauyğun olaraq keçmişdən gələn təcrübənin gələcəkdə hansı nəticələri göstərə biləcəyini öz yazıları ilə reallaşdırırlar. Və bu zaman biz bu qənaətlərə "yazıçı öncəgörməsi" deyirik.

Şəfəq Nasir öncəgörməsi ilə təqdir olunacaq yazıçıdır. Ümumiyyətlə, öncəgörmə keyfiyyəti ən çox yazıçılara xas olsa da, bu da hər yazıçıya nəsib olmur.

Şəfəq Nasirin 65 yaşı var. Bu, artıq gizlədiləsi yaş deyil. Həm cəmiyyət, həm də dövlət tərəfindən diqqətə alınmalı bir yaşdır. O, ictimai xadim kimi, mətbuat tariximizdə öz yerini tutub, dövlət qurumunda məsuliyyətlə və şərəflə işləyib. İndi də yaradıcılığının və ömrünün kamillik çağlarını yaşayan sənətkara deyiləsi çox sözlər var: Birinci növbədə zəhmətə, vicdanlı əməyə, istedadla qələmə alınmış əsərlərə görə rəsmi təqdirlər sənin halal haqqındır.

Bu gün də xüsusi enerji və məhsuldarlıqla çalışırsan. Ədəbi-publisistik fəaliyyətini *"Respublika"* qəzetində davam etdirirsən. Ədəbi-ictimai mühitimizdə yerini və nüfuzunu qoruyursan. Dövrü mətbuatda ardıcıl görünən imzan yaradıcılığının qaynarlığından xəbər verir.

Hörmətli Şəfəq Nasir! Sözümün sonunda yenə qayıdıram məktub ovqatına. Bu gün şəxsiyyət bütövlüyün, təbiətindəki səmimiyyət çoxcəhətli yaradıcılığında, həm bədii nəsrində, həm publisistikanda, həm də tədqiqatlarında da açıq-aydın görünən tərəflərdir. Ədəbiyyatımızın - ruhumuzun Şəfəqi, sənətin taleyi yanmaqdan keçir. Yanmaq sənin taleyindir. Yaşa, yarat!

*Əli Rza XƏLƏFLİ*
*24.06.2019*